**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT RƏSSAMLIQ AKADEMİYASI**

*Əlyazma hüququnda*

**GÜLNARƏ ZEYNAL qızı APAYDIN**

# “XALQ RƏSSAMI MAYİS AĞABƏYOVUN YARADICILIĞI ƏNƏNƏ VƏ MÜASİRLİK KONTEKSTİNDƏ”

İxtisas: 6215.01 – Təsviri sənət

Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcə
almaq üçün təqdim edilmiş dissertasiyanın

## AVTOREFERATI

**Bakı – 2018**

Dissertasiya Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | **Sevil Yusif qızı Sadıxova**<br>*sənətşünaslıq üzrə elmlər doktoru* |
| **Rəsmi opponentlər:** | **Nazim Zöhrab oğlu Bəykişiyev**<br>*Xalq rəssamı, professor* |
| | **Xədicə İbrahim-Xəlil qızı İbrahimova**<br>*sənətşünaslıq üzrə fəlsəfə doktoru* |
| **Aparıcı müəssisə:** | **Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti** |

Müdafiə 20 sentyabr 2018-ci il saat $14^{00}$-da Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdində yaradılmış FD.02.191 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 1029, Bakı şəhəri, Heydər Əliyev prospekti, 26

Dissertasiya ilə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat 12 iyul 2018-ci il tarixində göndərilmişdir.

**FD.02.191 Dissertasiya Şurasının elmi katibi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent:** **X.Z.Əsgərova**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqatın aktuallığı**. Xalq rəssamı, professor Mais Əlişir oğlu Ağabəyov Azərbaycan təsviri sənətində imzası olan sənətkalardandır. Rəssamın yaradıcılığı üzərində araşdırma zəngin daxili aləmə, yuksək intellektə, qeyri-adi sənətkarlıq bacarığına malik M.Ağabəyovun bu günlə səsləşən dərin məzmunlu əsərlərinin aktuallığını, sənətşünaslıq tarixində 70-ci illərdən başlayaraq günümüzədək təsviri sənət, eləcə də Azərbaycan kinosu və rəssam işini müəyyənləşdirmək baxımından böyük əhəmiyyət kəsb edir.

Mayis Ağabəyov 1941-ci ildə ziyalı ailəsində dünyaya gəlmişdir. O, Ə.Əzimzadə adına Rəssamlıq Texnikumunu bitirdikdən sonra 1961-ci ildə Moskva Kinematoqrafiya İnstitutunun rəssamlıq fakültəsinə qəbul olunur. Artıq tələbəlik illərindən başlayaraq rəssam kimi sənətdə ilk addımlarını atan M.Ağabəyov “Azərbaycanfilm” kinostudiyasında 30-dan artıq tarixi, eləcə də digər janrlarda bədii filmlərdə quruluşcu rəssam kimi fəaliyyət göstərmişdir. Bu dövr Azərbaycan incəsənətinin olduqca mürəkkəb mərhələsi idi. Belə ki, incəsənətdə ənənəvi meyllərlə yanaşı, yeni müasir yaradıcılıq meylləri gənc rəssamların yaradıcılığında özünü xüsusilə büruzə verirdi. Lakin yeniliyin hər bir rəssamın yaradıcılığında fərqli formalarla özünü göstərməsi həmin rəssamların yaradıcılıqlarını şərtləndirir, onların təkrarçılıqdan uzaq, fərdi xüsusiyyətlərini müəyyənləşdirirdi. Bu mənada postsovet məkanında rejimin tələbinə uyğun yaradıcılıq prinsiplərinin olmasına baxmayaraq M.Ağabəyovun əsərlərindəki ənənəviliklə yanaşı, eyni zamanda müasirliyə meyl bu fəaliyyətin özünəməxsusluğunu şərtləndirirdi. Mayis Ağabəyovun yaradıcılığı məhz müasir bədii mühitin tələblərindən irəli gələrək yeni forma və mövzuların yaranmasının şərtləndirilməsi nəticəsində yeni məzmunda meydana çıxan sənət dünyasında formalaşmağa başlayır. Bu yaradıcılığın səciyyəvi xüsusiyyəti milli-bədii ənənələrə sadiqliklə yanaşı, reallığın həssas və gercəkçi təsvirinə və bədii axtarışların müasirliyinə əsaslanırdı.

Zərif mavi, açıq yaşıl, narıncı tonların harmonik ifadəsi, incə lampa işığı, onu düşündürən mövzu üzərində daha dərin və fəlsəfi qatlara dayanan bədii ifadə vasitələri M.Ağabəyov yaradıcılığının özünəməxsusluğunu təsdiq edən xüsusiyyətlərdəndir. Təsviri sənət üzrə yaradıcılığındakı əsas xüsusiyyət onun gözəllik və reallıq arasında əlaqələndirmə prinsipindən irəli gələrək əsasən qadın dünyasını,

müqəddəs analıq duyğularını, zərif simanın lirik-fəlsəfi formalarala ifadəsini verməklə, fəlsəfi məna dəyəri ilə səciyyələnir. Belə əsərlərinə misal olaraq “Analıq”, “Ana və korpə”, “Ailə”, “Qaçqın ana”, “Uşaqlı qadınlar” və digərlərinin adını çəkmək olar. Bütün bu əsərlərin eyni yaradıcı ruhdan qaynaqlandığını təsdiq edən zəriflik, incəlik kiçik həyəcan doğuran qəhvəyi, narıncı, qızılı, mavi, yaşıl kimi tonların daha açıq və ya tünd kimi yaxın çalarlara keçən rəngləri üzərindəki incə parıltılarla, işıq təzadları ilə həll edilməsidir.

M.Ağabəyovun rəngkarlıq yaradıcılığı üzərindəki araşdırma onun müasirlik və avanqardizm arasında real formalarla öz əksini tapması, bədii improvizələr, ideal və reallıq arasındakı uyğunluq – gözəllik anlayışının tərənnümünün əsas götürülməsi, təbiətin bir parçası olan qadına qarşı duyğulu və həssas yanaşmanın realist janrın ənənəvi elementləri və müasir kontekstdə həll edilməsi, əsasən bədii-estetik və fəlsəfi yanaşmanın əsaslandırılması, sənətkarlıq xüsusiyyətlərinin özünəməxsusluğunun göstərilməsi, eləcə də milli bədii ənənələrin davam etdirilməsini deməyə əsas verir. M.Ağabəyov rəngkarlıq tablolarında gözəllik fəlsəfəsinin özünüifadəsini verərkən, kənar məqsədlərə yönəlmədən, vahid məqsəd uğruna sadəcə estetiklik və bədiilik xətrinə yerinə yetirilmiş yaradıcılıq nümunələri deyil, idealın təsvirçisinə çevrilməsi həmin əsərlərin yüksək bədii keyfiyyətə malik ifadəsini təsdiqləyir.

İstedadlı rəssamın çox az olmasına baxmayaraq heykəltəraşlıq sahəsində yaratdığı əsərlər də özünün dərin məna dəyəri ilə diqqət çəkir. Əsasən rəngkarlıq və kino rəssamı kimi şöhrət qazanmış M.Ağabəyovun heykəltəraşlıq əsərləri bədii plastik həlli, dolğun kompozisiya quruluşu ilə əhəmiyyət daşıyır. Rəssam heykəllərində mövzunun dərin fəlsəfi izahı ilə yanaşı, kompozisiyanı qurarkən əsərin bütün plastik problemlərini həll etməklə yüksək estetik zövq və yaradıcı prinsipiallığını sübut etmişdir. Buna misal olaraq “Süvarisiz at”, “Öküz üzərində qız”, “Femida”, “İlham”, “Ana və uşaq”, “Model”, “Qızılquş ovu” və digər əsərlərinin adını çəkmək olar.

Qeyd edildiyi kimi əsasən kino yaradıcılığı ilə şöhrət qazanmış rəssamın “Nəsimi”, “Babək”, “Nizami” kimi tarixi şəxsiyyətlərə həsr olunmuş filmlərin bədii tərtibatlarında təqdim etdiyi yüksək bədii keyfiyyətlər həmin filmlərin daha professional və təsirli formada meydana çıxmasına zəmin yaratmışdır. Mayis Ağabəyovun bütün tarixi filmlərə çəkilmiş ekran əsərlərindəki quruluşçu rəssam fəaliyyətinin

uğurunu onun istər uzaq, istər yaxın keçmişin tərənnümündə tarixi dəqiqliklə yanaşı, həm də həssas münasibətinin, fərdi yaradıcılıq təxəyyülünün nəticəsi kimi qiymətləndirmək olar.

Tarixi filmlərlə yanaşı “Həyat bizi sınayır”, “Qətl gunu”, “Ürək... ürək”, “Gümüşgol əfsanəsi” kimi Azərbaycan filmlərinin yaddaqalan səhnələrində M.Ağabəyovun danılmaz rolu yüksək əhəmiyyətə malikdir. Onun kino yaradıcılığı haqqında görkəmli rejissor Eldar Quliyev belə qeyd etmişdir: “Alqışlar və güllər, foto kameraların parlaq işıqları və müsahibələr, tamaşacı məhəbbəti və populyarlıq – butun bunlar cox vaxt aktyorların və rejissorların, dramaturqların və bəstəkarların payına duşur... Əslində, kino əsərinin yaradılmasında, filmlərin müvəffəqiyyəti və uğursuzluğu çox vaxt onun istedadından asılı olur. Bu adam – filmin quruluşcu rəssamıdır”.

Sənətkar qurluşçu rəssam kimi çalışdığı filmlərdə muxtəlif mukafatlara layiq gorulmuşdur. Bunlardan “Qızıl Sibilla” – 1977 (İspaniya), “Gumuş Sibilla” – 1997 (İspaniya), “Qızıl Zanbaq” – 1997 (Daşkənd), “Humay” – 1997 (Bakı), MDB və Latviya – “Anapa” prizi, 1997 və digərlərini qeyd etmək olar. “Məkanın melodiyası” filminə gorə 2003 cu ildə Bakı şəhərində “Qızıl Cıraq” IV Milli Kinoyaradıcılıq musabiqəsində iştirakına görə xüsusi mükafata layiq görülmüşdür. “Təkcə adanı ozunlə apara bilməzsən” filmi 1980-ci ildə Kiyev Ümumittifaq Gənclər Kinofestivalında iştirak etmiş, “təbiət və muhafizənin qorunması”na gorə diplom və priz almışdır.

Rəssamın əsərləri Almaniya, Turkiyə, Yaponiya, Fransa, İspaniya, Vyana, London, Moskva və digər xarici ölkələrin şəhərlərində təşkil edilmiş yaradıcılıq sərgilərində nümayiş etdirilmiş, dünyanın bir çox müzey və eksponatlarında, eləcə də şəxsi kolleksiyalarda saxlanmaqdadır. Bunlardan Moskvada Şərq Xalqları Muzeyinin, Bakıda Bədii Fondun və Azərbaycanın müxtəlif muzeylərinin adını qeyd etmək olar.

M.Ağabəyov sənətdəki bu fəaliyyətinə görə dövlətimiz tərəfindən yüksək dəyərləndirilmişdir. O, 1990-cı ildə Əməkdar rəssam, 2000-ci ildə isə Xalq rəssamı fəxri adlarına layiq görülmüşdür.

2000-ci ilin oktyabr ayında Londonda “Shell” firmasının dəstəyi ilə rəssamın rəngkarlıq əsərlərindən ibarət fərdi sərgisi kecirilir. 2001-ci ildə isə M.Ağabəyovun 60 illiyi münasibətilə Bakı İncəsənət Mərkəzində “Caspian” jurnalının təşəbbusu və “Shell” firmasının dəstəyi ilə

sənətkarın qrafik və kiçik heykəltəraşlıq əsərlərindən ibarət fərdi sərgisi təşkil olunmuşdur.

Bütün bunlar Mayis Ağabəyovun Azərbaycan incəsənətinin parlaq nümayəndələrindən biri olmaqla, onun şöhrətini artıran incəsənət xadimlərindən sayıldığını bir daha təsdiq edir. Bu mənada sənətkarın orjinal bədii ifadə tərzi, üslub xüsusiyyətləri və dəsti-xətti Azərbaycan incəsənətinin bədii arsenalını zənginləşdirmişdir. Məhz bu cəhətləri əsas götürərək müasir sənətşünaslıq elmində sənətkar yaradıcılığının monoqrafik tədqiqinə ehtiyac olduğunu idda edə bilərik.

Mayis Ağabəyov təsviri sənətin müxtəlif janrlarında əvəzsiz sənət nümunələri yaradan şəxsi dəsti-xəttə malik rəssam kimi tanınıb. Təxminən yarım əsrlik bir dövr ərzində Azərbaycan incəsənətinə xidmət edən Xalq rəssamının yaradıcılığı bu günə qədər sistemli, geniş şəkildə araşdırılmamışdır. Sənətkarın muzeylərdə, şəxsi kolleksiyalarda, qalereyalarda saxlanılan əsərləri bədii özünəməxsusluq baxımından elmi təsvir və təhlil olunmayıb. Bu mənada M.Ağabəyov sənətinin elmi araşdırılması incəsənət tariximizi genişləndirmiş olacaq.

**Problemin tədqiq olunma dərəcəsi.** Mayis Ağabəyovun yaradıcılığı daima sənətsevərlərin və mütəxəssislərin diqqətini özünə cəlb etmişdir. Onun yaradıcılığı haqqında informasiyalara bir çox mətbu orqan, internet saytları və televiziya verilişlərində yer verilmişdir. Rəssamın yaradıcılığına geniş sənətşünaslıq reaksiyası ilk dəfə 2011-ci ildə sənətşünaslıq üzrə fəlsəfə doktoru Vüqar Abdullayev tərəfindən “Azpoliqraf” mətbəəsində nəşr edilmiş “Xəyali rənglər işığında” adlı kitabında yer almışdır. Kitab 3 dildə (Azərbaycan, rus və ingilis) nəşr edilmişdir. Kitabda geniş yaradıcılıq diapozonuna malik sənətkarın həyat və yaradıcılığı haqqında konkret məlumatlar verilmişdir. Bundan əlavə rəssamın yaradıcılığını işıqlandıran 2000-ci ilin oktyabrında Londonda “Humay” qalereyası “Royal Dutch/Shell Group of Companies” tərəfindən dərc edilmiş kataloq da xüsusi diqqətəlayiqdir.

2011-ci ildə isə Azərbaycan Respublikası Mədəniyyət və Turizim Nazirliyi, Azərbaycan Rəssamlar İttifaqı və Muzey mərkəzinin birgə təşkilatçılığı ilə rəssamın rəngkarlıq, qrafika və heykəltəraşlıq əsərlərindən ibarət kataloqu dərc edilmişdir.

Qeyd edildiyi kimi Mayis Ağabəyov yaradıcılığının müxtəlif mərhələləri və sahələrinə qəzet məqalələrində də rast gəlinir. Bu məqalələrdə rəssamın xarici səfərlər zamanı yaratdığı əsərlər, rəngkarlıq əsərləri, qrafik tabloları, heykəltəraşlıq nümunələri xüsusilə diqqət

mərkəzində olmaqdadır. Bunlarla yanaşı Azərbaycan kinosunun əsas səhifələrindən olan quruluşçu rəssam fəaliyyətinin özünəməxsusluğunun M.Ağabəyov yaradıcılığında tapılmış təsdiqi haqda bir çox məlumatlara da rast gəlmək mümkündür.

**Tədqiqatın məqsədi və vəzifələri.** Azərbaycan Xalq rəssamı, professor Mayis Ağabəyovun yaradıcılığını sistemli təhlil edərək, rəssamın yaradıcılığının özünəməxsusluğunu, dəsti-xəttini, yaradıcılıq metodunu və mərhələlərini müəyyən etməkdir. Görkəmli sənətkarın yaradıcılıq xüsusiyyətlərini müəyyənləşdirərkən, ona həmdövr olan Azərbaycan incəsənəti kontekstini təhlil etmək tədqiqatın məqsəd və vəzifələri kimi çıxış edir.

Başlıca məqsəd həm də rəssamın yaradıcılığının fərdi özünəməxsusluğunu ifadə edən əsərlərinin fəlsəfi formalarla bədii ifadəsini araşdırmaq, təhlil etmək, Mayis Ağabəyov yaradıcılığına müasir dövrün prizmasından yanaşmaqdır.

Mayis Ağabəyov yaradıcılığının həmdövr və müasir Azərbaycan incəsənəti kontektsində öyrənilməsi aşağıdakı vəzifələrin həllini nəzərdə tutur:

- Mayis Ağabəyovun bu günə qədər öyrənilməyən əsərlərini təhlil etmək;
- İstedadlı rəssamın rəngkarlıq, qrafika və heykəltəraşlıq əsərlərindəki ənənəvilik və müasirliyin sintezinin əlaqələndirilməsini müəyyənləşdirmək, onları qiymətləndirmək;
- Sənətkarın rəngkarlıq əsərlərində fəlsəfi fikrin dərkini təsdiqləmək;
- M.Ağabəyovun qrafika və heykəltəraşlıq əsərlərinin bədii xüsusiyyətlərini araşdırmaq;
- Rəssamın kino yaradıcılığında tarixiliyin tərənnümü və lirik-romantik hisslərin ifadəsini təhlil etmək.

Eyni zamanda rəssamın yaradıcılıq kredosunu müəyyənləşdirməklə Mayis Ağabəyov yaradıcılığına qiymət vermək və bu yaradıcılığın müasir Azərbaycan sənətşünaslıq elmində yerini müəyyənləşdirmək tədqiqatın məqsəd və vəzifələrinə daxildir.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin əsas tədqiqat obyektini Mayis Ağabəyovun müxtəlif rəngkarlıq, qrafika, heykəltəraşlıq əsərləri, bədii filmlərə etdiyi kinodekorasiya və geyim eskizləri üzrə əsərləri təşkil edir. Tədqiqatın obyektinin böyük qismini rəssamın əsərlərinin bədii təhlili təşkil edir.

Rəssamın xüsusi və dövrü mətbuatda nəşr olunmuş əsərləri ilə bərabər, şəxsi kolleksiyalarda saxlanılan əsərləri tədqiqat obyekti bazasını xeyli genişləndirmişdir.

Tədqiqatın predmeti kimi 70-ci illərdən başlayaraq günümüzə qədər Azərbaycan rəssamlığının inkişafında M.Ağabəyovun rolunu və yerini araşdırmaqdır.

Rəssamın yaradıcılığındakı yeni tendensiyalar araşdırılıb və konkret nəzəri müddəalarla təsbit olunmuşlar. M.Ağabəyov yaradıcılığını səciyyələndirən bədii xüsusiyyətlərin, yeni və orjinal ifadə vasitələrinin təhlili tədqiqat predmetinin qayəsini təşkil edir.

**Tədqiqatın metodoloji əsasları.** Metodoloji əsaslar kimi tarixi-mədəni və tarixi-bədii yanaşma üsuluna üstünlük verilib. Dissertasiya üzərində iş zamanı bizim tərəfimizdən tədqiqatda kompleksli metoddan istifadə edilmişdir, yəni əyani material əhatəli şəkildə təhlil olunmuşdur. Əsas əsərlər təhlil edilmiş, imkan daxilində bütün öyrənilən yaradıcılıq nümunələrinə yer ayrılmışdır. Əlavə olaraq, arxiv sənədləri araşdırılaraq təhlil olunmuş, mətbuat ümumiləşdirilərək şərh edilmiş, müasir sənətşünaslıqla bağlı elmi-nəzəri ədəbiyyat öyrənilmişdir.

**Tədqiqatın hüdudları.** Mayis Ağabəyov yaradıcılığı zaman və məkan çərçivələrindən irəli gəlir. Zaman çərçivələri XX əsrin 70-ci illərindən başlayaraq müasir dövrümüzədək olan illəri, coğrafi çərçivələr isə rəssamın yaşayıb-yaratdığı Azərbaycan, təhsil aldığı Rusiya və yaradıcılıq ezamiyyətlərində olmuş ölkələri əhatə edir.

**Tədqiqatın elmi yeniliyi** ilk növbədə ondan ibarətdir ki, elmi araşdırmalar zamanı Mayis Ağabəyovun indiyə qədər tədqiq olunmamış təsviri sənət əsərləri təsvir və təhlil olunmuşdur. Buraya xüsusi olaraq bu günə qədər heç bir kataloqa əlavə edilməmiş kino eskizlər daxildir ki, rəssamın şəxsi arxivinə məxsus həmin eskizlərin bir çoxu sovet məkanında reallaşmış filmlərə siyasi ideologiyadan irəli gələrək əlavə edilməmişdir. Həmin əsərlərin dissertasiyada təhlili tədqiqat işinin maraq dairəsini xüsusilə əhəmiyyətli etmişdir.

Elmi işdə Azərbaycan təsviri incəsənətinin böyük dövrünü əhatə edən Mayis Ağabəyovun yaradıcılığı əhatəli şəkildə araşdırılıb. Müxtəlif muzeylərdə, şəxsi fondlarda qorunan, şəxsi arxivdə saxlanan əsərlərin siyahısı hazırlanıb.

Rəssamın uzun illik yaradıcılığı ayrı-ayrı istiqamətlərə bölünərək onların yaradıcı nailiyyətləri müəyyənləşdirilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Hazırki tədqiqat Azərbaycan incəsənət tarixini genişləndirərək təsviri sənətin ümumi inkişafında Azərbaycan Xalq rəssamı Mayis Ağabəyov yaradıcılığının rolunu, yerini və yaradıcılıq metodunu müəyyən edir. Tədqiqatın nəticələri və müddəaları Azərbaycan təsviri sənətinin zənginliyini, növ və janr müxtəlifliyi diapazonunu və yaradıcılıq üslublarını genişləndirmiş olur.

Tədqiqat rəssamlıq təmayüllü ali və orta ixtisas müəssisələrində rəssam və sənətşünas tələbələrə "Azərbaycan təsviri sənəti tarixi" və "Kinoda rəssam işi" mövzusunda xüsusi kurslar çərçivəsində tədris oluna bilər. Rəssamın yaradıcılıq təcrübəsinə aid müddəalar gənc rəssamlar üçün əməli tövsiyyələr rolunu oynaya bilərlər.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasında yerinə yetirilmişdir. Tədqiqat işinin əsas məzmunu, elmi müddəa və nəticələri 6 məqalədə öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, iki fəsil, beş yarımfəsil, nəticə, istifadə olunmuş ədəbiyyat və illüstrasiya siyahısından ibarətdir. Tədqiqatın məzmunu kompüter yığımının 121 səhifəsində öz əksini tapmış, illüstrasiyalar isə ayrıca albom şəklində dissertasiyaya əlavə olunmuşdur.

## İŞİN MƏZMUNU VƏ ƏSAS MÜDDƏALARI

**Girişdə** mövzunun aktuallığı, məqsəd və vəzifələri, onun işlənmə səviyyəsi, eləcə də işin elmi yeniliyi, praktiki əhəmiyyəti, aprobasiyası, strukturu və həcmi haqda məlumat verilir.

Dissertasiyanın birinci fəsli "**Xalq rəssamı Mayis Ağabəyovun kino yaradıcılığı"**na həsr edilmişdir. **"M.Ağabəyovun kino yaradıcılığında tarixiliyin tərənnümü"** adlanan ilk yarımfəslində rəssamın üzərində çalışdığı tarixi filmlərin bədii keyfiyyətləri açıqlanmışdır.

1970-80-ci illərdə "Azərbaycanfilm" kinostudiyası tərəfindən əsasən digər studiyalarla birgə bir neçə tarixi-inqilabi janrda olduqca maraqlı, orijinal filmlər çəkilmişdir. Belə filmlər sırasında "Axırıncı aşırım" (1971, quruluşçu rəssam Nadir Zeynalov), "Səmt küləyi" (1973, quruluşçu rəssam Kamil Nəcəfzadə, Boqumil Pokornı), "Qatır

Məmməd” (1974, quruluşçu rəssam Nadir Zeynalov, Rafiz İsmayılov) kimi filmlərin adlarını çəkmək olar. Qeyd edilən ekran əsərlərində tarixi-inqilabi ruh, dramatik səhnələr görkəmli rəssamların milli ruha, ənənələrə tapınan yaradıcılıq prinsipləri əsasında reallaşmış eskizlər vasitəsilə dekorasiyalara köçürülmüşdür.

1970-ci ildə Azərbaycanda sovet hakimiyyətinin 50 illiyinə həsr edilmiş Səməd Vurğunun “Komsomol” poeması əsasında çəkilmiş “Yeddi oğul istərəm” bədii filmi də bu qəbilə aiddir. Sovetlər dövrünün ideoloji-siyasi tələbindən irəli gələrək yaradıcı heyətdə digər xalqların nümayəndələri də iştirak edə bilərdilər. Lakin görkəmli aktyor və rejissor Adil İsgəndərovun studiyaya rəhbərliyi dövründə onun milliyyətçi ruhundan irəli gələrək əsasən Rusiyanın görkəmli təhsil ocaqlarında təhsil almış istedadlı azərbaycanlı aktyor və rəssamların filmə cəlb olunmasına çalışırdı. O, azərbaycanlı sənətkarlar arasında bu potensialın kifayət qədər olduğuna inanır və yanılmırdı da. Bu mənada tarixi-inqilabi ruhda çəkiləcək filmin geyim üzrə rəssam işi bütün məsuliyyəti ilə Mayis Ağabəyova həvalə edilir. Doğrudur, film sovet ideologiyasının tələblərinə cavab verəcək şəkildə həyata keçirilir. Lakin güclü aktyor oyunu, əvəzsiz rejissor işi, dolğun rəssam fəaliyyəti görkəmli ekran əsərinin meydana gəlməsinə səbəb olur. Filmdə həm milli, həm tarixi ənənələrin birgə verilməsində geyim eskizləri ekran əsərinin keyfiyyətinə əsaslı təsir göstərmişdir. Mirpaşa və Bəxtiyar obrazına edilmiş geyim eskizində XIX əsrin sonu – XX əsrin əvvəllərində istənilən sahədə milli xarakter daşıyan Azərbaycan libaslarının əsas nümunələrinin vacib elementlərindən obrazın xarakterik xüsusiyyətlərinin açılmasında ona uyğun formada istifadə edən M.Ağabəyov ümummilli xalq geyiminin əsasının qorunub saxlanmasına xüsusi diqqət yetirmişdir.

1970-ci illərdə eyni zamanda Azərbaycan kino tarixində adı qızıl hərflərlə yazılmış tarixi filmlər də istehsal olunmuşdur. Bunların sırasında “Nəsimi” (1973), “Babək” (1979), “Dədə Qorqud” (1975) kimi ekran əsərlərinin adını xüsusilə çəkmək olar. Qeyd edilən filmlərin hər birində tarixi keçmişin siyasi və mədəni həyatındakı hadisələr əks olunmuşdur. Rəssamların tamaşaçısını inandıran real təsvir maneralı hər bir ekran əsəri özünün fərqli və səciyyəvi xüsusiyyətləri ilə diqqəti çəkir. Filmin ssenari müəllifi film haqqında belə qeyd etmişdir: “… Nəsimi XIV əsrin axırlarında Azərbaycanda və yaxın Şərqdə geniş yayılmış hurifizim hərəkatının başında duran filosof Fəzluluah Nəiminin ən yaxın

silahdaşı və davamçısı kimi, bütün həyatını, yaradıcılığını Teymurləngin qanlı hökmranlığına, dini ehkamlara və insan hüquqsuzluğuna qarşı mübarizədə keçirmişdir. Filmdə biz bu mübarizəni həm sərt boyalarla, həm də romantik planda əks etdirmişik”[1].

1973-cü ildə Həsən Seyidbəylinin rejissorluq etdiyi Azərbaycan xalqının görkəmli şair və filosofu, gözəlliyin tərənnümçüsü İmadəddin Nəsiminin anadan olmasının 600 illiyinə həsr olunmuş bədii film çəkilir ki, burada da quruluşçu rəssam işi Mayis Ağabəyov və Məmməd Hüseynova həvalə edilir.

Filmdə toplu səhnələrdən birinə edilmiş eskizdə sərt yaxılar, kəskin və təzadlı rəng keçidləri, dinamik çalarlar, eləcə də seçilmiş məkan və orada qurulmuş dekorasiyaların eskiz variantı dövrün ağır siyasi mühitini canlandırır. Çoxfiqurlu tabloda insanların çoxluğuna baxmayaraq uyğun bir nizam kompozisiyanın bütövlük anlayışından xəbər verir. Ümumiyə tabe rəssamın filmdə səhnə yaratma prinsipiallığından irəli gələrək bütün detalların tarixi-dəqiqliyini təsdiqləyir.

1979-cu ildə Ənvər Məmədxanlının ssenarisi əsasında Eldar Quliyevin rejissorluq etdiyi “Mosfilm” və “Azərbaycanfilm”in birgə istehsalı olan “Babək” filmi çəkilir. Filmdə quruluşçu rəssam vəzifəsi Mayis Ağabəyova həvalə edilir. Əsərdə hadisələrin cərəyan etdiyi tarixi dövr IX əsrə təsadüf edir. Həmin dövrün memarlıq məkan mühitini, rekvizitlərini, əşyalarını, geyim formasını canlandırmaq rəssamın qarşısına həmin zaman üzrə böyük araşdırma tələbi qoyurdu. Kinoşünas Aydın Kazımzadə bu haqda qeyd etmişdir: “... Filmdə baş verən hadisələr tarixi həqiqətlərlə əsaslandırılmışdır. Operator R.İsmayılov və rəssam M.Ağabəyov öz yaradıcı işlərində bu tarixiliyi qoruyub saxlamaq və bütün təbiiliyi ilə vermək üçün səylə çalışmışlar”[2]. Bu məsuliyyətin ağırlığı yalnız böyük təcrübə və savadın nəticəsində həll edilə bilərdi. Filmə yaradılmış eskizlər arasında Babəkin feodalın otağında olan səhnəsi diqqəti cəlb edir. Bizans dövrünə aid sarayın interyerinin həlli, eləcə də obrazlara edilmiş geyim eskizləri üzərindəki yaradıcılıq işi məharətlə həyata keçirilmişdir. Bizans İmperiyasının mövcud olduğu dövrdə yaranmış binaların daxili və xarici görünüşünün ən parlaq nümunələrinə İstanbulun Ayasofiya kilsəsində və digər yerlərdə rast gəlirik ki, eskizdə bu memarlığın abu-havasına uyğun rəng həlli,

---

[1] Aydın Kazımzadə. “Bizim Azərbaycanfilm”, Bakı, “Mütərcim” 2004, səh. 198.
[2] Aydın Kazımzadə. “Bizim Azərbaycanfilm”, Bakı, “Mütərcim”, 2004, səh.199.

sütunların quruluşu, tünd yaşıl və zoğalı kimi rənglər, qızılı rəngin parlaqlığı, ornamentasiya, bir sözlə dəbdəbə diqqəti çəkir. Yarımsütunların üzərindən onları birləşdirən arkaların rəngli forması xüsusilə maraq doğurur. Təsvir Bizans imperatorunun Babəyi ərəblərə qarşı saziş bağlamağa razı salmaq istədiyi, lakin Babəyin buna razı olmayaraq işğalçılara qarşı mübarizə aparmaq iqtidirında olduğunu iddia etdiyi tarixi hadisənin səhnə tərənnümünə həsr edilmişdir. Lakin siyasi səbəblərdən bu səhnə filmə salınmamışdır. Rəssamın arxivinə məxsus eskiz isə tarixi anlamı, yüksək bədii ifadəsi ilə böyük bir əsər kimi yaddaşlarda qalacaq.

1981-ci ildə Türkiyə kinematoqrafçılarının nümayəndə heyətinin başçısı, Türkiyə Kinematoqrafiya İdarəsinin rəisi Cihad Çivçili "Babək" filmi haqqında belə qeyd etmişdir: "Babək" filminin yaradıcıları ürəkdən alqışlamaq istəyirəm. Kütləvi səhnələr, döyüş epizodları, kostyumlar yaradıcı heyətin birgə əməyinin məhsulu kimi qiymətlidir"[3].

Mayis Ağabəyovun bütün tarixi filmlərə çəkilmiş ekran əsərlərindəki quruluşçu rəssam fəaliyyətinin uğurunu onun istər uzaq, istər yaxın keçmişin tərənnümündə tarixi dəqiqliklə yanaşı, həm də həssas münasibətinin, fərdi yaradıcılıq təxəyyülünün nəticəsi kimi qiymətləndirmək olar.

Fəslin ikinci yarımfəsli **"Rəssamın kino yaradıcılığında lirik-romantik hisslərin ifadəsi"** adlanır.

Mayis Ağabəyov 1969-2013-cü illər arasında 30-dan çox filmə quruluş vermişdir. Hər bir ekran əsərində xüsusi bacarıq nümayiş etdirərək ssenarinin ideya-məzmununun açılmasında yüksək bədii keyfiyyətləri ilə yanaşı rəssamın geniş axtarışlarına əsaslanan eskiz nümunələrin yaranması Azərbaycan kinosunun bu səhifəsində xüsusi əhəmiyyət kəsb edir. Belə filmlər sırasına tarixi janrda çəkilmiş ekran əsərləri ilə yanaşı fərqli mövzular üzərində qurulmuş kinolar da daxildir. Burada rəssamın fəaliyyəti ilə üzvü surətdə bağlı olan problemlərin düzgün həlli yalnız birbaşa M.Ağabəyovun peşəkarlıq səviyyəsinin göstəricisidir. Bu problemlərin əsasında tərənnüm edilmiş epizodun, səhnənin tamaşaçı tərəfindən həqiqət, reallıq kimi qavranılması, onun tamaşa etdiyi səhnənin həyəcanını hiss etməsidir. Belə filmlərdən olan 1972-ci ildə ekranlaşdırılmış "Həyat bizi sınayır" filmi diqqət çəkir. Doğrudur, filmdə bir qədər natamam, sanki yarımçıq qalmış səhnələrin

[3] Aydın Kazımzadə. "Bizim Azərbaycanfilm", Bakı, "Mütərcim", 2004, səh.194.

də mövcudluğunu qeyd etməliyik. Lakin filmin görüntü plastikasının həllində rəssamın göstərdiyi sənətkarlıq, eləcə də güclü rejissor və operator əməyi maraqlı ekran əsərinin meydana çıxmasına səbəb olmuşdur. Ssenariyə əsasən müstəqil həyata qədəm qoymuş bir gəncin qısa müddət ərzində qarşılaşdığı problemlər və mühit tərənnüm edilmişdir. Qeyd edilən filmdə Mayis Ağabəyov kinorəssam Fikrət Bağırovla birgə çalışmışdır. İki rəssamın eyni stili tutaraq bütün səhnələrin tamlığına nail olmaları xüsusi əhəmiyyət kəsb edir. Rəssam işıq-kölgə münasibətlərində, rəng həllində əlaqələndirmədən məharətlə istifadə edərək əsərdəki ekspresiyyanı daha da qüvvətləndirməyi bacarmış, məkan və obraz arasındakı miqyas fərqini kəskin şəkildə bir-birindən fərqləndirərək mühitin ümumi xarakterini açıqlamışdır.

1976-cı ildə rejissor Eldar Quliyev tərəfindən çəkilmiş "Ürək... ürək..." bədii filmi üzərindəki rəssam işi də Mayis Ağabəyovun uğurlu fəaliyyətinin bariz nümunələrindəndir. Bu dövrün filmlərində digər mövzularla yanaşı, mənəvi-əxlaq problemləri xüsusi olaraq önə çəkilirdi. Mövzular arasında müasir həyata müxtəlif baxışlar, insan xarakterlərinin təhlili, gənc nəslin formalaşması və digərləri xüsusi əhəmiyyət kəsb edirdi. Belə filmlər sırasında "Gün keçdi", "Ən vacib müsahibə", "Xoşbəxtlik qayğıları" kimi filmlərin adlarını sadalamaq olar ki, həmin ekran əsərlərində müasir düşüncə, yeni formalaşmış cəmiyyət və həmin cəmiyyətdə insan faktoru, bəzən uyğun, bəzən isə uyğunsuzluq, arzular və ona zidd olan cəmiyyətin əxlaqi problem formatına uyğun olmayan mənəvi istəklər və s. açıqlanmışdır. Həmin filmlər Azərbaycan kinosunun həmin dövr müasir həyatına güzgü tutan unudulmaz ekran əsərləridir. Məsələn, "Gün keçdi" filmində iki xarakterin bir-birinə olan münasibətinin bədii ifadəsi verilmişdir. Görkəmli kinoşünas, Əməkdar İncəsənət xadimi Aydın Dadaşov bu haqda belə qeyd etmişdi: Məhz "Gün keçdi"də Arif Babayev (filmin rejissoru) kinomuzda kök salan "lentə alınmış teatr" estetikasına üsyan etdi. Filmdə aktyorlar, dekorlar deyil, audiovizuallıq prinsipi önə çıxdı..."[4]. Filmin quruluşçu rəssamı Elbəy Rzaquliyevin əlaqəli eskizləri əsərdəki bu audiovizuallıq prinsipinin canlı tərənnüm edilməsində - Bakının 70-80-ci illər mənzərəsinin verilməsində, insan hisslərinin tərənnümündə uyğun natural dekorasiyaların seçilməsində, eləcə də obrazların filmin qayəsi ilə səsləşən geyim eskizlərinin verilməsində həssas yaradıcı münasibəti bu

[4] Aydın Dadaşov "Sənətdə keçən ömür", 525-ci qəzet, 24 sentyabr 2005, səh 30

günə qədər həmin filmin tamaşaçılar tərəfindən sevilməsinə səbəb olmuşdur.

Tamaşaçının hisslərinə eyni zamanda sirayət edən prinsipiallığın həm də rəssam fəaliyyətinə ünvanlanması “Ürək... ürək...” filmində də qarşıya çıxan problemin həllində rəssamın çiyninə böyük məsuliyyət yükləyirdi. Böyük ictimai problem kimi meydana çıxmış məsələnin, ağılla hisslər arasındakı zidiyyətin yaratdığı fəsadlar əsərin məzmununu təşkil edir. Çünki burda məsələ sadəcə filmin təsvir stilinin, ifadə vasitələrinin tapılmasından getmir, hadisələrin xarakterik xüsusiyyətlərinin cəmləndiyi problemlərin həllinə yönəli eskizlərin yaradılmasından gedir.

M.Ağabəyov filmin təsvir stilinin formasını təyin edən eskizlər üzərində çalışarkən məkan və obrazlılıq prinsipini əsas götürmüş, əsas olanı – hökm sürən abu-havanı canlandırmağa çalışmışdır.

Rəssamın kino yaradıcılığı üzrə araşdırmanın nəticələri aşağıdakı qənaətlərin əldə edilməsinə imkan verir:

- M.Ağabəyov hər bir hadisənin və onların cərəyan etdiyi məkanın vahid kompozisiya bağlılığını təmin etməklə filmin ümumi təsvir ansamblını yaratmağı bacarmışdır.
- Rəssam epizod və səhnələrdə təsvirin daha qabarıq şəkildə nəzərə çarpan aksentlərini təyin etmiş, hadisələrin baş verdiyi yerlərin xarakterik xüsusiyyətlərini doğru açıqlamış, onların dramaturji və rəng ahəngini, ton, fəza və montaj həllinin uğurlu nəticəsinə məharətlə nail olmuşdur.

Dissertasiyanın “**Mayis Ağabəyovun təsviri sənət əsərlərinin bədii xüsusiyyətləri”** adlı II fəslin ilk yarımfəsli **“M.Ağabəyovun rəngkarlıq əsərlərində ənənəvilik və müasirliyin vəhdəti”** adlanır.

XX əsr Azərbaycan təsviri sənətinin görkəmli nümayəndələrindən olan Xalq rəssamının əsasən kino rəssamı kimi fəaliyyət göstərməsinə baxmayaraq onun müxtəlif mövzuları ilə tamaşaçısını düşündürən rəngkarlıq əsərləri də vardır. Həmin əsərlərin başlıca mövzusunu qadın və ana obrazları təşkil edir.

Bir rəssam kimi Mayis Ağabəyov əsərlərində həyatın, taleyin qarşımıza qoyduğu bütün suallara cavab verməyə ehtiyac hiss edir, özünün ifadə vasitələrindən – rənglərdən, işıqdan, xətlərdən, çoxmənalı kompozisiyalardan istifadə edərək cavab tapmağa çalışır. Rəngkarlıq əsərlərindəki solğunluq, onu əvəz edən parlaqlıq, kətanın fakturası və ya qəribə görünüşlər – bütün bunlar rəssamın laqeyd olmayan, çılğın

qəlbinin inikasıdır. Bədii obrazlarla düşünən, üsyana çağıran, barışdıran, əmin-amanlıq arzulayan bir sənətkar qəlbinin səsidir. Əbədi, mühüm, vacib keyfiyyətlərin təsviridir. Belə əsərlərindən "Analıq", "Ana və korpə", "Ailə", "Qaçqın ana", "Uşaqlı qadınlar" və digərlərinin adını çəkmək olar. Ümumiyyətlə, qadın, onun ailədəki mövqeyi Mayis Ağabəyovun ən cox muraciət etdiyi movzulardandır.

Ana obrazının tərənnümünə yönəli əsərləri sırasında 1985-ci ildə yaratdığı "Uşaqlı qadınlar" adlı tablosunda qəhvəyi, yaşıl, sarı kimi yaxın tonların qarşılıqlı münasibətində məzmun bütövlüyünə nail olan rəssam təzadlı formalardan yayınaraq zərifliyin tərənnümü məqsədilə yaxınlıq əlaqəsində olan rəng həllinə üstünlük vermişdir. Burada iki nəfər üz-üzə dayanmış obrazın qucağında təsvir edilmiş övladların vasitəsilə öz bəyazlığı ilə qadının ən böyük "əsəri" olan pak, təmiz körpənin varlığına işarə edilir. Açıq yaşıl-qəhvəyi fon üzərində verilmiş bütün obrazların parıltılı effektləri sənətkarın mövzuya dünyanın fəlsəfi dərki qədər böyük həssaslıqla yanaşmasının göstəricisidir. Obrazların daha şişirdilmiş, cizgilərin, formaların qəsdən qabardılmış tərzdə verilməsi M.Ağabəyovun rəngkarlıq əsərlərinin səciyyəvi xüsusiyyəti olmaqla yanaşı, həm də kompozisiyanın təsirli, diqqətçəkən bədii həlli ilə izah edilir.

Dünyada gedən inkişaf, sosial-iqtisadi həyatdakı dəyişikliklər hər zaman mənəvi-psixoloji mühitə də öz təsirini göstərməkdədir. Lakin dəyişməyən, heç bir sosiallığın, iqtisadi durumun formasını dəyişdirməyə qadir olmadığı, bəşər tarixi ilə bərabər yaranışından mükəmməl olaraq əsrlərin, qərinələrin dəyişdiyi məkan mühitində də dəyişməyən analığın möhtəşəmliyinin simvolu olan qadın gözəlliyini rəssam yalnız xarici deyil, mənəvi mükəmməllik anlamında tamaşaçısına təqdim edir. Burada sovet rəssamlığının ənənəvi rəngkarlıq prinsiplərindən çıxaraq müasir yaradıcılıq tendensiyası və dəyişməyən ənənəvi mövzu prinsipi vəhdət təşkil edərək özünün yüksək həllini tapmışdır. Əsərdəki zəriflik, incəlik kiçik həyəcan doğuran qəhvəyi tonun sarı-yaşıla keçən çalarları üzərindəki incə parıltılarla, işıq təzadları ilə həll edilmişdir.

Qadın gözəlliyinin bütün zərifliyi ilə çatdırlması anını rəssam daxili aləmin tərənnümü ilə izah edir. Burada həqiqət və reallıq arasındakı uyğunluğun tərənnümü tamaşaçısını gözəllik anlayışının dərkinə varmağa məcbur edir. Bu tipli tablolarda biz, real gözəl surətlər aləmi ilə deyil, rənglərin və formaların bu anlayışın dərininə dayanan

qatlarının bədii ifadəsi ilə qarşılaşırıq. Sənətkarın bu mövzunun cazibəsinə düşməməyin mümkünsüzlüyünü ifadə etmək cəhdi qadın dünyasına həsr edilmiş əsərlərin mahiyyətini açıqlayır. Bu mənada təxəyyülün kətana köçürülmüş gerçəkliyi həqiqi sənət əsərinin meydan gəlməsi ilə nəticələnmişdir. Rəssamın bu həqiqəti neçə qəbul etdiyinin ümumi prinsipə dayandığını iddia etmək, həmin prinsipin fəlsəfi mənada ideal və reallıq arasındakı uyğunluq anlayışına söykəndiyini qeyd etməyə əsas verir. Bu mənada M.Ağabəyovun cizgizləri tam bəlli olmayan, mavinin parlaq tonlar əhatəsindəki işıq tonu qədər zərifliyinin tərənnümünü verdiyi əsərlərini korkoranə təsvir edilərək, öz mücərrədliyi ilə, çılpaqlığın qabardılmış formaları ilə tamaşaçısını çaşdıran, onda anlaşılmazlıq yaradan təsvir forması ilə deyil, həmin əsərlərin izahını verən fəlsəfi anlayışın dərkinə dəvəti hesab etmək daha məqsədəuyğundur.

Belə əsərlərindən olan "Qadınlar" adlı rəngkarlıq tablosunda sifət cizgiləri bəlli olmasa da ümumi kompozisiyanın diqtə etdiyi məzmun etibarı ilə qadınlığın əsas vəzifəsi olan analıq hisslərini irəli çəkmişdir. Əsərdə bir neçə qadının bir yerdə təsvirini verən rəssam zərif işıq altında öz uşağına süd verən ananın obrazını daha öndə vermişdir. Əsər "Qadınlar" adlandığından müəllif cəmiyyətin zərif nümayəndələrini gündəlik məişət həyatı ilə məşğul olduğu zaman verə bilərdi. Lakin ən incə məqamları işıqlandırmağa üstünlük verən sənətkar oturmuş qadının körpəsinə süd verdiyi anı müqəddəslik rəmzi kimi canlandırmışdır. Solğun rəng qammasında verilmiş hiss və həyəcan dolu tabloda digər qadınların da məhəbbətlə bu məsum anı izləmələri əsərin təsir gücünü daha da artırır, onun həyəcan dolu səhnəsini daha həssaslıqla tamaşaçısına çatdırır.

Əsər 1990-cı ildə, siyasi həyatımızın ən gərgin anlarında həyata keçirilmişdir. Bu elə dövr idi ki, cəmiyyət çaxnaşmanın gətirəcəyi faciələrin hansı sona varacağı sualının cavabsızlığı ilə üz-üzə idi. Belə bir mühitdə öz yaradıcılığında sanki qaranlıqda bir şam yandıraraq dəyişməyən anın "həzinliyini" tabloya köçürməklə rəssam özünə sakitlik tapa bilirdi. Axan rənglərin öz-özlüyündə yaratdığı lirizm xaosun içində kiçik bir məkan taparaq sakitliyə qapanmış böyük bir mənəvi aləmin rahat dünyasını təqdim edir.

Qeyd edilən yarımfəsil üzrə araşdırma aşağıdakı nəticələri deməyə əsas verir:

- Mayis Ağabəyovun rəngkarlq əsərlərində müasirlik və avanqardizm real formalarla öz əksini tapmışdır;

- Rəssamın rəngkarlıq əsərlərində ideal və reallıq arasındakı uyğunluq – gözəllik anlayışı əsas götürülmüşdür;

- Təbiətin bir parçası olan qadın gözəlliyinə olan duyğulu və həssas yanaşma ənənəvi elementlər və müasirlik kontekstində həll edilmişdir;

- Mayis Ağabəyovun rəngkarlıq əsərlərində əsasən bədii-estetik və fəlsəfi yanaşmanın əsaslandırılması, sənətkarlıq xüsusiyyətlərinin özünəməxsusluğu nəzəri cəlb edir;

- Rəssamın yaradıcılığında milli bədii ənənələr davam etdirilir.

Fəslin ikinci yarımfəsli **“Rəssamın rəngkarlıq əsərlərində fəlsəfi fikrin dərki”** adlanır**.**

M.Ağabəyov rəngkarlıq tablolarında gözəllik fəlsəfəsinin özünüifadəsini verərkən, kənar məqsədlərə yönəlmədən, vahid məqsəd uğruna sadəcə estetiklik və bədiilik xətrinə yerinə yetirilmiş yaradıcılıq nümunələri yaratmaqla kifayətlənmir, idealın təsvirçisinə çevrilir. Sənətkarın bu xətt üzrə inkişaf edən yaradıcılığı – arzularını gercəkləşdirmə inamı, qətiyyəti, eləcə də bu istəkləri daxilindən çəkib kənara ötürmə ehtiyacının ödənilməsidir.

80-ci illərə qədər bir çox ölkələrə - Şərqi Asiya, Sinqapur, Tayland, Almaniya, Fransa və İngiltərəyə səyahət etmiş M.Ağabəyovun təsviri sənətə daha da vurğunluğu onun bu illərdə ilk dəfə Madridin Prado muzeyini gəzəndən sonra olmuş, rəssamın rəngkarlıq sənətində tamamən dönüş yaranmışdır. 1985-ci ildə SSRİ Kino İttifaqının xətti ilə İspaniyaya yaradıcılıq ezamiyyətinə gedən rəssam Madrid şəhərində Prado İspan rəssamlarının əsərlərindən ibarət zəngin sərgi salonlarına tamaşa etmişdir. Burada sərgilənən dahi rəssamların əsərləri Ağabəyova böyük təsir göstərmişdir. Velaskesin, Qoyyanın əsərləri rəsamın daxili aləminə təsir edərək onun hisslərini oyandırdı.

Sənətinə pərəstiş etdiyi ispan rəssamı Qoyyanın bu səfərə qədər yalnız bir kiçik portret janrında icra etdiyi əsərini Moskvada Puşkin muzeyində görən rəssam, Madriddə Prado Muzeyində onun rənglərinə heyran qalmışdır. Bu əsərlər onun yaradıcılığında dərin iz qoydu. Onun ispan dövrü rəsm əsərlərində Velaskesin, Qoyyanın təsiri özünü real şəkildə göstərir. Əsasən qırmızı, yaşıl tonların parlaq çalarlaırından istifadə əsərlərin dərin qatlara dayanan prinsipial mövqeyini açıqlayır. Bu dövrdə sənətkar İspaniya səfərinin təsiri alrtında bir sıra əsərlərini

yaradır. Onlardan “Qoyyaya ithaf”, “Prado xatirələri”, “Qəzəbləmiş öküz” kimi tablolarını qeyd etmək olar.

Ümumiyyətlə, M.Ağabəyovun rəngkarlıq əsərlərinin bədii dili onun fəlsəfi anlayışda mövcud olan ideal və reallıq arasındakı uyğunluğunun təqdimi ilə əlaqəli idi. Rəssam təxəyyülünə sığa biləcək idealın həqiqətə çevrilməsi prosesinin kətan üzərində gerçəkləşdirilməsi onun həmin əsərlərin əsasında dayanan fəlsəfi düşüncənin dərkinə sövq edən yaradıcılıq potensialı hesab etmək daha düzgün olar. Sənətkar bu tipli əsərlərini yaradarkən hadisələrin tam tərənnümü və ya təəssüratını deyil, onun mahiyyətini açacaq və yaxud hadisəni deyil, onu törədən səbəblərin mahiyyətinə varmaq ehtiyacı hiss etmişdir.

Onun “Qəzəblənmiş öküz” (1985) əsərində Qərb rəssamlığının akademik incəsənətə uyğun elementlərinin təsiri özünü aydın şəkildə büruzə verir. Tünd çalarlar, əsas mərkəzi obyektin xüsusi rəng effektləri ilə işıqlandırlması bunu sübit edir. Məsələn, görkəmli fransız rəssamı Ejen Delakruanın 1822-ci ildə “Dante qalası” əsərinə diqqət yetirildikdə burada tünd və aqressiv çalarların üstünlük təşkil etdiyi, rəng parlaqlığının əsərə verdiyi möhtəşəmlik, insan vücudunun dinamikası öz möhtəşəmliyi ilə diqqət çəkir. Bu meyllərin bədii ifadəsini M.Ağabəyovun əsərlərində də görmək mümkündür. Lakin demək olmaz ki, rəssam bütün bunları təkrarlamışdır. Onun akademik stilə şəxsi münasibətinin yeni bədii formalarla təzahürü həmin əsərlərin səciyyəvi xüsusiyyətini təşkil edir. Doğrudur, Mayis Ağabəyovun yaradıcılıqdakı uğurları daha çox emprik təcrübəyə əsaslanır. Lakin bir çox rəngkarlıq tablolarında Qərb rəssamlıq meyllərinin bu yaradıcılıqdan yan keçmədiyini də qeyd etməliyik. Təbii ki, burada ənənəvi prinsiplərin də hökm sürdüyü fikrini nəzərdən qaçırmamalıyıq.

Misal olaraq Prado haqqında “Qoyyaya ithaf” əsərinə nəzər yetirək. Tablo dərin həyəcan sonrasını xatırladan mənalı və düşündürücü səhnə təəssüratı ilə diqqəti cəlb edir. Rənglərin ekspressiyası, hərəkətsizliyin özündə belə öncəki səhnənin insanın hissələrinə sirayət edən təəssüratı olduqca diqqətəlayiqdir. Çoxfiqurlu kompozisiyada sifətlərin solğun siması ilə müqayisədə bütün geyim və ətraf mühitin tünd çalarları, kəskin rəng tonlarının parlaqlıq ilə əvəz olunması, əsas səhnəyə tamaşa edən insan toplusu dərin təəssürat yaradır. Yaralanmış və ram olmuş öküzün yerə sərilmiş simasında sadəcə uğursuzluq deyil, məğlubiyyətdən qəzəb doğan od püskürtülü nəfəsi olduqca canlı

verilmişdir. Tünd qara dərili öküzün xüsusi effektlərlə ağarmış üzü, yerə dağılan qanı əsərdəki ön dinamikanın təəssüratını yaşadır.

Tablo Fransisko Qoyyanın 1800-1801-ci ildə yaratdığı “IV Karlos və ailəsi” tablosunun bədii xüsusiyyətlərini xatırladır. Oxşar kompozisiya və rəng həlli, işıq-kölgə effektləri rəssama olan ithaf, onun sənətinə sevgi münasibətini təqdim edir.

M.Ağabəyov 1996 və 97-ci illərdə eyni ad altında “Danaya” əsərlərini yaradır. 1636-cı ildə dahi holland rəssamı Rembrandtın yaratdığı eyni adlı əsərə diqqət yetirildikdə M.Ağabəyovun yunan mifologiyasında Perseyin anası olan Danaya xarakterinin təsvirində onun yaşam, həyati dərkinin verilməsində təkrarçılıq etmədən fərqli formanın yaradılması prinsipinə sadiqliyini nümayiş etdirmiş, fərqli fəlsəfi məna vermişdir. Tabloda Danayanın zərif görkəmi, gözəlliyi önə çəkilmiş və bu gözəlliyin qarşısında ram olan Zevsin yalvarış səhnəsi tərənnüm edilmişdir. Rəssam əlində açarlar tutaraq bütün qapıları Danayanın üzünə açmağa hazır olan Zevsin gözəllik qarşısındakı təslimini olduqca təsirli formalarla izah edir.

Ümumiyyətlə, dünyaca məşhur mövzulara müraciət edərək onu dövrümüz üçün aktuallaşdırmaq Mayis Ağabəyovun sənət həyatının əsas məqamlarından biridir. Məsələn, “Azmış oğulun qayıtması” əsərində rəssam Rembrandtın məqsədini təkrarlamayaraq, öz fəlsəfi izahı ilə onun bədii həllini vermişdir. Nəyi izah edir bu fəlsəfə? Dəyişən cəmiyyətimizdəki özünədərki, özünə qayıdışı, sovetlər birliyində bizi bizdən ayıran rejimin məngənəsindən xilas olub özümüzə qayıtmağı, yolunu azmış düşüncənin öz mənəviyyatına qayıtması.. Bütün bunların izahı əsərdə möhtəşəm həllinə çatmışdır. Milli şüurun özünüdərkini rəssam illərlə “həbs olunmuş” dəyərlərimizə qayıtmanın simvolu kimi canlandırır.

**“Rəssamın rəngkarlıq əsərlərində fəlsəfi fikrin dərki”** adlı ikinci yarımfəsli üzrə araşdırmaların müddəaları aşağıdakı kimi açıqlanır:

- Dünya və eləcə də Azərbaycan rəngkarlığında mövcud olan cərəyan və bədii prinsiplərin bədii-fəlsəfi dərki və yaradıcılığında istifadəsi;

- Rəssam rəngkarlıq əsərlərində fəlsəfi fikrin dərkində gözəllik anlayışını ideallıq və reallıq arasındakı uyğunluq əlaqəsi ilə izah etmişdir;

- Müasir rəngkarlıq elementlərinin istifadəsində realistik janrın ənənəvi prinsiplərinə sadiqlik və bədii improvizələr rəssamın rəngkarlıq əsərlərinin əsasını təşkil edir;

- Rəssamın rəngkarlıq əsərlərində daxili hiss və həyəcanın tərənnümü avanqard formalarla öz əksini tapmışdır.

Fəslin sonuncu yarımfəsli "**Mayis Ağabəyovun qrafika və heykəltəraşlıq əsərlərinin bədii xüsusiyyətləri**" adlanır**.**

İstedadlı sənətkarlarımızdan olan Mayis Ağabəyovun yaradıcılığı üzərindəki araşdırma bu fəaliyyətin məğzində həyatın qarşımıza çıxardığı suallara cavab axtarışı dayandığını deməyə əsas verir. Onun yaratdığı mücərrəd kompozisiyalar və yaxud plastik formalar həyat fəlsəfəsinin dərkinə yönələrək, tamaşaçısını düşünməyə vadar edir. Əsasən qadın, ana obrazlarının həyatı dərkinə yönəlmiş təsviri sənət əsərlərində Mayis Ağabəyovun dərin təfəkkürü, yaşam fəlsəfəsi özünün ən incə məqamları, zərif nüansları ilə təsvir obyektinə çevrilmidir. Onun qrafik əsərlərindəki rəng parlaqlığı, sərt ştrixlər, zərif işıq effektləri rəssam düşüncəsinin dərin qatlarını üzə çıxarır. Sənətkarın yaranış, həyat və analıq arasındakı əlaqələndirməsi "Ailə", "Ana", "Atlı qadın", "Lampa işığı" kimi qrafik tablolarında silsilə şəklində öz bədii izahını tapmışdır.

Rəssamın tabloları nə qədər rəngarəng olsa da bir mövzu üzərində silsilə əsərlər yaratmasını onu düşündürən problemin həllinə bir neçə dəfə müraiət etməsi ilə izah etmək olar. Məsələn, silsilə "Ailə" əsərlərinə diqqət yetirək. Bu tablolarda tək bir ailə səatədi deyil, xoşbəxt bəşəriyyətin dərkində xöşbəxt qadın varlığının dayandığını tamaşaçısına sübut etməyə çalışan rəssam hər bir əsərində lirizmin, özünəməxsusluğun, fərdiliyin təqdiminə nail olmuşdur. Yaradıcılığında istər rəngkarlıq, istər qrafik, istərsə də heykəltəraşlıq nümunələrinə nəzər salsaq bunların hər birində rəssam düşüncəsinin eyni bir nöqtədə dayandığını görərik. Bu nöqtə ANA və YARANIŞ, QADIN və GÖZƏLLİK prinsipinin yekun təsdiqini izah edir.

Qeyd edildiyi kimi Mayis Ağabəyov əsasən rəngkarlıq və kino rəssamı kimi şöhrət qazanmış olsa da, onun qrafika və heykəltəraşlıq sahəsində də müəyyən mənada yaradıcılığı olmuşdur. Əsasən heykəltəraşlıq əsərlərinə diqqət yetirsək onların sayca az olmasına baxmayaraq həmin kiçik heykəltəraşlıq nümunələrinin bədii plastik həlli, dolğun kompozisiya quruluşu diqqəti cəlb edərək, onların yaddaqalan sənət əsəri olduğunu təsdiq edir. Rəssamın 2000-ci ildə Londonda

keçirilmiş fərdi sərgisində 10-a yaxın kicik plastik heykəlləri nümayiş etdirilirdi. Bunlardan “Süvarisiz at”, “Ana və uşaq”, “Model”, “Öküz üzərində qız”, “Qızılquş ovu” və digərləri tamaşaçılar tərəfindən yüksək marağa səbəb olmuşdu.

M.Ağabəyovun yaratdığı heykəllər arasında “Süvarisiz at” xüsusi yerə sahibdir. Bürüncdən olan, 36x10x10 sm ölçüsündə əsər süvarisi həlak olmuş tənha atın təsvirinə həsr edilmişdir. Taqətdən düşmüş, lakin yoluna davam edən, hətta yolunu azan atın ağır, asta hərəkətlərinin təbii canlılığını rəssam xüsusi məharətlə həyata keçirmişdir. Atın sanki sahibinin məğlubiyyətini yaşayan yorğun və kədərli formasını rəssam xüsusi plastikliklə həyata keçirmişdir. Adi təsvirdən uzaq, bir hadisəni diqtə edən əsərdə rəssam plastik sənətin incəliklərindən istifadə etməyi məharətlə bacarmışdır. Kiçik heykəl nümunəsinin yüksək məna dəyərinin plastik formalarla yaradılması rəssamın əksər hallarda digər janrlarda da yaratdığı atın simvolik obrazına heykəldə birbaşa müraciət etməsi, simvolikləşdirmədən hadisənin mahiyyətini açıqlaması, yaşantıların dərin kədərini çatdırması məqsədi güdməsindən ibarətdir. Hətta sənətşünaslıq üzrə fəlsəfə doktoru Ziyadxan Əliyev bu haqda belə qeyd etmişdir: “Mayis Ağabəyovun təhsili kino ilə əlaqədardır, lakin o həm də rəngkardır, mənzərə ustasıdır, onun kicik heykəlləri də vardır... Mayis Ağabəyovun yaradıcılığı kifayət qədər genişdir. O, tamaşacısını düşündürən rəssamdır. Onun əsərlərində muasirlik və avanqardizm kifayət qədər realdır, muasir dovrdə bəzi rəssamların əsərlərində “avanqardizm” şüarı altında deformasiyalar var, ancaq reallığı əks etdirmir. Mayis Ağabəyovun yaradıcılığında isə reallıq olduğu kimi əks olunur”[5].

Rəssamın qrafika və heykəltəraşlıq sahəsinə həsr olunmuş əsərlərindəki yaradıcılıq prinsipləri üzrə araşdırmanın nəticəsini aşağıdakı kimi müəyyənləşdirmək olar:

- Mayis Ağabəyovun qrafik əsərlərində əsasən bədii-estetik və fəlsəfi dərkin əsaslandırılması, sənətkarlıq xüsusiyyətlərinin özünəməxsusluğunun göstərilməsi nəzəri özünə cəlb edir;

- Mayis Ağabəyovun fərqli mövzularda yaratdığı heykəllərdə bədii ənənəyə yaradıcılıqla yanaşma prinsipinə üstünlük verməsi, hadisənin və obrazların fəlsəfəsini yaratma gücünü nümayiş etdirməklə, plastik tutumun orijinallığına nail olma imkanın təsdiqi müəllifin dəst-

[5] V.Abdullayev, “Xəyali rənglər işığında”, Bakı, 2011, s.22-23.

xətt özünəməxsusluğunu şərtləndirməklə qarşıya qoyulan problemin həllinə nail olduğunu sübut etmişdir.

**Nəticədə** dissertasiyanın əsas müddəaları müxtəsər elmi-nəzəri yekunlar şəklində ümumiləşdirilmişdir:

- Mayis Ağabəyovun kino yaradıcılığı üzərində təhlillə bağlı toplanmış və sistemləşdirilmiş material əsasında bu yaradıcılıq istiqamətində Azərbaycan kinosunda mövcud bədii prinsiplər müəyyənləşdirilmişdir.
- Mayis Ağabəyovun yaradıcılığının ənənə və müasirlik kontekstində araşdırılması zamanı rəssamın təsviri sənət yaradıcılığında realistik janrın ənənəvi xüsusiyyətləri ilə yanaşı bədii improvizələr bu yaradıcılığı şərtləndirən əsas cəhətdir.
- Rəssam fəlsəfi fikrin dərkinə yönəli rəngkarlıq əsərlərində məkan, insan, obyekt, elementlərin tərənümündə adi təsvir formasından yayınaraq hadisənin mərkəzində dayanan mahiyyəti açıqlamağa çalışmışdır. Bunun üçün o, əsərin fəlsəfi anlamının dərkində, əlaqələndirməyə diqqət yetirmiş, tablolarında harmoniklik, həssaslıq təlqin etdən çalarlardan istifadə etmişdir.
- Mayis Ağabəyovun qrafik tablolarında əsasən bədii-estetik və fəlsəfi yanaşmanın əsaslandırılması, sənətkarlıq xüsusiyyətlərinin özünəməxsusluğunun göstərilməsi nəzəri özünə cəlb edir.
- Mayis Ağabəyovun fərqli mövzularda yaratdığı heykəllərdə bədii ənənəyə yaradıcılıqla yanaşma prinsipinə üstünlük verməsi, hadisənin və obrazların fəlsəfəsini yaratma gücünü nümayiş etdirməklə, plastik tutumun orijinallığına nail olma imkanın təsdiqi müəllifin dəst-xətt özünəməxsusluğunu şərtləndirməklə qarşıya qoyulan problemin həllinə nail olduğunu sübut etmişdir.

Xalq rəssamı Mayis Ağabəyovun bütövlükdə yaradıcı fəaliyyətinə nəzər saldıqda keçən əsrin 70-cı illərindən başlayaraq hazırki dövrə qədər davam edən bu fəaliyyətin əsasında rəssamın mövzuya həssas münasibəti, Azərbaycan və dünya təsviri sənətində mövcud bədii prinsiplərdən istifadə, realistik janrın səciyyəvi xüsusiyyətləri, bədii improvizələr kimi əsas amillərin dayandığını görürürk.

**Dissertasiyanın mövzusu ilə bağlı dissertantın aşağıdakı məqalələri dərc edilmişdir:**

1. “Xalq rəssamı Mayis Ağabəyovun “Psixeya” əsərinin bədii xüsusiyyətləri” // “Elmi əsərlər” Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, № 24, Bakı, 2017, s. 234-238.

2. “Образ матери в творчестве Народного художника Маиса Агабекова” // The Founders the science publishing center “Sociosphere-CZ”, Academia Rerum Civilium – University of Political and Social Sciences, № 1, Пенза, 2018, с. 72-75.

3. “Mayis Ağabəyovun kino yaradıcılığında tarixiliyin tərənnümü” // “Svilizasiya”, cild 7 № 1, Bakı, 2018 (37), s. 346-350.

4. “Средства художественного выражения в скульптурных произедениях Маиса Агабекова” // Народы Евразии: история, культура и проблемы взаимодействия, VIII Международная научно-практическая конференция, 5-6 апреля 2018, Прага, с. 8-11.

5. “Mayis Ağabəyovun qrafik əsərlərində fəlsəfi fikrin dərki” // “Axtarışlar”. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan bölməsi, İncəsənət, Dil və Ədəbiyyat İnstitutu. Naxçıvan, 2018, № 2. s. 143-146.

6. “Xalq rəssamı Mayis Ağabəyovun rəngkarlıq əsərlərində ənənə və müasirlik” // Azərbaycan Xalça Muzeyi, Təsviri və dekorativ-tətbiqi sənət məsələləri, Bakı, 2018, № 21, s. 32-37.

**Гюльнара Зейнал гызы Апайдын**

## Творчество Народного художника Маиса Агабекова в контексте традиций и современности

## РЕЗЮМЕ

Диссертация посвящена обширному исследованию творчества народного художника Азербайджана Маиса Агабекова.

Диссертация состоит из введения, двух глав, пяти подглав, заключения, списка литературы и иллюстраций.

**Во введении** обосновываются актуальность темы, её цель и задачи, определяются степень разработанности, а так же научная новизна, практическая значимость, апробация, структура и объём работы.

**Первая глава** диссертации посвящена исследованию творчества народного художника Маиса Агабекова в области кино. В период 1969-2013 гг. Маис Агабеков дал художественное оформление более 30 художественным фильмам. Демонстрируя особые навыки в открытии идеи и содержания сценария каждого экранного произведения, основанные на обширных поисках самого художника с его высоким художественным потенциалом создания эскизов, имеет особое значение для этой страницы азербайджанского кино. Наряду с экранными произведениями, снятыми в историческом жанре, имеются так же фильмы, созданные на разные темы.

**Вторая глава** диссертации называется «Художественные особености произведений изобраззительного искусства Маиса Агабекова». Исследование творчества одного из талантливейших художников Азербайджана Маиса Агабекова дает нам основание говорить о том, что мноие ответы на жизненные вопросы, основаны на поисках художника. Отличающиеся сосредоточенным вниманием к философии жизни, абстрактные композиции и пластичные формы автора, особо впечатляют зрителя.

**В Заключении** обобщаются основные выводы исследования.

**Gulnara Zeynal Apaydın**

## Work of People's Artist Mayis Aghabayov in the context of tradition and modernity

**Summary**

The dissertation is devoted to the study of the People's Artist Mayis Aghabayov's extensive work.

The dissertation comprises introduction, two chapters, five subchapters, conclusion, list of reference and illustrations.

The **introduction** talks about the relevance, aims and tasks of the topic, its level of development, as well as scientific novelty, practical significance, approbation, structure and volume of the work.

The first chapter of the dissertation is devoted to the **"Cinema work of the People's Artist Mayis Aghabayov"**. Mayis Aghabayov contributed to more than 30 films between 1969-2013. Each screen work is demonstrated with a special talent, and alongside high artistic features in revealing the idea and content of the scenario, creation of sketch samples based on broad research of the artist is of particular importance in this page of the Azerbaijani cinema. Among these films are not only screen works made in historical genre but also films built on different topics.

The second chapter of the dissertation is titled **"Artistic features of Mayis Aghabayov's descriptive art works"**. The study on one of our skilled artists, Mayis Aghabayov's work gives grounds to say that the essence of this activity is about looking for answers to the questions of life. His abstract compositions or plastic forms are oriented at the understanding of the philosophy of life and force the spectators think.

The **conclusion** generalizes the main clauses of the dissertation in the form of brief scientific and theoretical outcomes.

Format 60x84 $^{1}/_{16}$
AMEA-nın mətbəəsində çap olunub.
Sayı: 100 nüsxə.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКАЯ ГОСУДАРСТВЕННАЯ АКАДЕМИЯ ХУДОЖЕСТВ**

*На правах рукописи*

**ГЮЛЬНАРА ЗЕЙНАЛ гызы АПАЙДЫН**

# ТВОРЧЕСТВО НАРОДНОГО ХУДОЖНИКА МАИСА АГАБЕКОВА В КОНТЕКСТЕ ТРАДИЦИЙ И СОВРЕМЕННОСТИ

Специальность: 6215.01 – Изобразительное искусство

## АВТОРЕФЕРАТ

диссертации на соискание ученой степени
доктора философии в области искусствоведения

**БАКУ – 2018**